
"MƏN VƏ MƏNİM DÜNYAM"
GÜVƏNCİN nağılları
Qarı körpüsü



Göydən yüz alma düşdü,
Uşaqlar tez bölüşdü.
Hər almanın öz dadı,
Hər nağılın öz adı!



























Qədim zamanlarda Murov dağının ətəyində, Tərtər çayının düz qırağında tək-tənha bir qarı yaşayırdı. Ta bunun nəyi yox idi: filan qədər inəyi, qoyun-quzusu, keçisi, ördəyi-qazı, toyuq-cücəsi, arısı. Nehrəsi yay-qış ağacdan asılı olurdu – yağını quzu qarınına, şorunu da qoç dərisinə doldururdu. Səbət-səbət yumurtanı, küpə-küpə balı ta bilmirdi hara qoysun. Evinin arxasında bir bağ salmışdı ki, qozunu, fındığını, almasını, armudunu, əzgilini, zoğalını, moruğunu, qarağatını yığıb-yığışdırmaq olmurdu.



Dirriyində soğanı, kələmi, lobyası, qarğıdalısı aşıb-daşırdı. Amma nə olsun, yazıq qarı bu boyda var-dövləti bir yana çıxarda bilmirdi – hara üz tuturdusa, dəli-dolu Tərtər çayı qabağını kəsirdi.

Neyləsin-neyləsin, axırda naəlac qalıb, bir usta çağırdı, dedi, haqqın nədirsə verim, bu çayın üstündən bir körpü sal, yağım, pendirim, yumurtam, balım, qozum, fındığım, almam, armudum, zoğalım, əzgilim, soğanım-sarımsağım, lobyam, kələmim qalıb xarab olmasın, aparıb Qarabağın bazarlarında satım.



Usta gördü ki, bu bir varlı-karlı qarıdı, yeddi inək, yeddi qoyun, yeddi keçi, yeddi qaz, yeddi ördək, yeddi toyuq, yeddi arı, ta nə başınızı ağrıdım, qoz, fındıq, alma, armud, zoğal, əzgil ağaclarının hər birindən yeddi dənə, sonra da yeddi kisə soğan, yeddi kisə kələm, yeddi kisə lobya, yeddi kisə də qarğıdalı istədi. Elə ki, qiymətdə razılaşdılar, usta başladı işə.



Günlər ötdü, vaxt-vədə yetişdi, körpü hazır oldu. Usta dedi:

– Qarı, sənə elə bir körpü tikmişəm ki, dağa gedən də, dağdan gələn də düz qapının ağzından keçəcək, satmalı nəyin varsa, satacaqsan. Daha hıqqana-hıqqana Qarabağın bazarlarına getməyəcəksən.

Doğrudan da elə oldu. Yazağzı – elat yaylağa çıxan vaxt köç köçün dalınca düzüldü. Hamısı da bir-bir gəlib körpünün üstündən keçdi.



Amma bu, dəli-dolu Tərtər çayının xoşuna gəlmədi, hirsli-hirsli dedi:

– Qarı, inəyin, qoyun-quzun, keçin, toyuq-cücən suyumdan içdi, dinmədim, axırda məni hər gələnin-gedənin ayağının altında qoydun. Görmürsən mənim Murov dağı boyda arxam var?! Darıxma, qoy yaz gəlsin, başına bir oyun açım ki, ömürbillah yadından çıxmasın!

Qarı çönüb Murov dağına baxdı. Gördü zirvəsinə o qədər qar yağıb ki, bir balaca ərisə, qabağında körpü nədi, heç bənd-bərə də tab gətirməz.



Aradan xeyli vaxt keçdi, yaz gəldi, göy guruldadı, ildırım çaxdı, yer-göy lərzəyə gəldi, külli-aləmi sel-su basdı. Tərtər çayı kükrədi, nə kükrədi, körpünü bir həmlədəcə yerlə yeksan etdi.



Yazıq qarı bir kötüyün üstündə əyləşib, bütün günü, dərd-qəm içində, çar-naçar Tərtər çayının dağ kimi qalxıb-enən boz-bulanlıq sularına baxa-baxa qaldı, axırda, şər qarışanda qalxıb evinə getdi, elə çırağı təzəcə yandırmışdı ki, qapı döyüldü.

Qarı soruşdu:

– Kimsən?



Çöldən səs gəldi:

– Allah qonağı.

Qarı qapını açdı. Gördü, bu bir yaşlı adamdı, əynində əbası, əlində də əsası. Soruşdu:

– Kimsən? Nə istəyirsən?

Qonaq dedi:

– Yoldan keçənəm. Qaranlığa düşdüm. Dedim, mümkün olsa, bu gecəni burda qalaram.

Qarı dedi:

– Keç içəri.



Qonaq içəri keçdi. Qarı bir də soruşdu:

– Nə işin sahibisən, hardan gəlib, hara gedirsən?

Qonaq dedi:

– Dərvişəm. El-el gəzirəm.

Qarı çay qoydu, qayğanaq bişirdi.

Qonaq yol gəlib yorulmuşdu, həm də bərk acmışdı. Odur ki, yemək yeyən kimi yıxılıb yatdı. Sübh tezdən duranda gördü ki, süfrədə dünyanın naz-neməti var, amma nəyə görəsə qarı yaman bikefdi, dedi:

– Qarı, nə dərdin var ki, belə qəmginsən?



Qarı başına gələnləri danışdı.
Dərviş soruşdu:
– Tərtər çayı yəni belə güclüdü ki, adlı-sanlı bir ustanın tikdiyi körpünü uçurdur?
Qarı bir ah çəkib dedi:
– Tərtər çayının arxasında Murov boyda dağ dayanır! Deyirsən güclü olmasın?
Dərviş dedi:
– Murovdan da güclü şey var.
Qarı soruşdu:
– O nədi elə?





Dərviş dedi:

– Sən körpünün palçığını yumurta sarısından hazırlat. Gör nə olur.

Dərviş gedəndən sonra Qarı həmin ustanı yenə çağırdı, dedi, haqqı nədi, verim, bu körpünü təzədən tik, amma palçığını yumurta sarısından hazırla.

Usta yenə hər şeydən yeddi-yeddi istədi, elə ki, razılığa gəldilər, başladı işə.

Günlər həftələrə, həftələr aylara qovuşdu, vaxt-vədə yetişdi, körpü hazır oldu.

Yenə yazağzı – elat yaylağa çıxan vaxt köç köçün dalınca düzüldü. Bu, dəli-dolu Tərtər çayının xoşuna gəlmədi, kükrədi, özünü ha ora-bura vurdu, körpünü yerindən tərpədə bilmədi, axırda naəlac qalıb sakitləşdi.

Elə o vaxtdan da o körpünün adı «Qarı körpüsü» qaldı.



# «Qarı körpüsü» nağılına aid suallar




Qarı harada yaşayırdı?




Qarı niyə körpü saldırmaq istəyirdi?




Usta hansı qiymətə körpü salmağa razılıq verdi?




Körpü nə vaxt hazır oldu?




Dəli-dolu Tərtər çayı nə üçün hirsləndi?




Qəfildən nə baş verdi?




Qarı evə qayıdandan sonra nə oldu?




Qonaq kim idi?




Qarı qonağa nə bişirdi?




Qarının kefsiz olmağına səbəb nə idi?




Əvvəl tikilən körpü ilə sonra tikilən körpünün fərqi nədə idi?




Camaat yeni tikilən körpünü necə adlandırdı?

**İdeya müəllifi:** Qoşqar Qarayev
**Layihənin rəhbəri:** Qaraqoyunlu
**Yazar:** Dilsuz
**Məsləhətçi:** Bəkir Nəbiyev
**Nəşriyyat direktoru:** Nərgiz Cabbarlı
**Məsul redaktor:** Akif Dənzizadə
**Nəşriyyat redaktoru:** İlyas Tapdıq
**Texniki qrupun rəhbəri:** Denis İzuf
**Rəssamlar:** İlqar Mehdiyev, Yusif Kətanov
**Dizayn:** Adıgözəl Abdullayev
**Operator:** Narınc Quliyeva
**Korrektorlar:** Fəridə Ələsgərli, Xəyalə Azadəliyeva
**Mətbəə direktoru:** Yasəf Qaçayev
**Çapa məsul:** Azad Babayev, Ramiz İmanov

Çapa imzalanmış 06.06.2008,
formatı 60x84 1/8, fiziki ç.v. 2, təbaşirli kağız №1,
arial qarnituru, sifariş GN №7, Sayı 500.
Kitab *«Beşik nəşriyyatı»*nda
nəşrə hazırlanmış və "İDEAL-PRİNT" mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.

Tel.: (+99412)4183872, 4183873, (+99040)2181787, (+99050)4989555
E-mail: beshik@beshik.az;
www.beshik.az

STANDARTLAŞDIRMA, METROLOGİYA
VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİ
şəhadətnamə № 2005 0563
iddia sənədi № 2005 0841,
ilkinlik tarixi: 15.07.2005.
Nağılın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar
*«Beşik nəşriyyatı»*na
məxsusdur.
© *«Beşik nəşriyyatı»*

**Əmtəə nişanı:** "MƏN VƏ MƏNİM DÜNYAM"

**ISBN 978-9952-446-07-4**

ISBN 978-9952-446-07-4

